1. **Bu üslub XV Lüdovikin hakimiyyəti illərinə düşür, ona görə də bu üsluba Lüdovikin üslubu da deyirlər:**
   A) Qotik üslub
   B) Roman üslubu
   C) İntibah üslubu
   D) Barokko üslubu
   E) Rokoko üslubu

2. **Şəddənin ənənəvi bəzək süjeti:**
   A) dəvə karvanı
   B) quş və həndəsi ornamentlər
   C) şaquli, rəngarəng zolaqlar
   D) sadə həndəsi fiqurlar
   E) medalyon–göl

3. **Rəngkarlıqda bədii-emosional qüvvəni müəyyənləşdirən vasitə:**
   A) Lokal rəng
   B) Kolorit
   C) İşıq-kölgə
   D) Kontrast rənglər
   E) Ton

4. **. .......“natamamlığı” ilə heykəlləri reallığın mexaniki oxşatmasından xilas etmişdi:**
   A) Naum Qabo
   B) Alberto Cakometti
   C) Henri Spenser Mur
   D) Ogüst Roden
   E) Xuan Miro

5. **Uyğunluğu müəyyən edin:**
   1. Sadiq bəy Əfşar
   2. Sultan Məhəmməd
   3. Müzəffər Əli
   a. “İmam Qulu xan”
   b. “Yusif quyudan çıxır”
   c. “Keymurazın saray əhli”
   A) 1-b, 2-a, 3-c
   B) 1-c, 2-b, 3-a
   C) 1-a, 2-c, 3-b
   D) 1-c, 2-a, 3-b
   E) 1-a, 2-b, 3-c

6. **Karikatura haqqında fikirlərdən biri *yanlışdır:***
   A) gündəlik hadisələrə dərhal münasibət bildirməyə qabil olan yeganə janrdır
   B) vahid hekayəni təşkil edən qısa mətnli şəkil silsiləsidir
   C) konkret tipajların  müəyyən şəraitdə əsl, gerçək cizgiləri həm də komik formada əks olunur
   D) ictimai həyatdakı mənfi təzahürlərlə mübarizə aparmağa kömək edir
   E) sosial problemlərə toxunur və yumoristik vəziyyəti əks etdirir

7. **Uyğunluğu müəyyən edin:**
   1. Sakit Məmmədov
   2. Böyükaga Mirzəzadə
   3. Cəlal Qaryağdı
   4. Əzim Əzimzadə
   5. Arif Hüseynov
   a. “İtaliyalı qız”, “Güzgü qarşısında”, “Arzu”, “Şah İsmayıl Xətai”, “Yatmış Mələk”, “Həzin musiqi”
   b. “Varlı evində toy”, “Kasıb evində toy”, “Varlı evində Ramazan”, “Oxutmuram əl çəkin”
   c. “Pambıq yığımı”, “Günorta çağı”, “Xəzər neftçiləri”, “Neft çənləri”, “Bakıda axşam”
   d. “Çoban”, “Rəşid Behbudov”, “Molla Pənah Vaqif”, “Mİrzə Ələkbər Sabir”.
   e. “Cırtdan”, “Nar bayramı”, “Nərd oyunu”, “Hophopnamə”

   A) 1-b, 2-c, 3-e, 4-a, 5-d
   B) 1-e, 2-d, 3-c, 4-b, 5-a
   C) 1-a, 2-c, 3-d, 4-b, 5-e
   D) 1-d, 2-a, 3-b, 4-e, 5-c
   E) 1-c, 2-e, 3-a, 4-d, 5-b

8. **Əsərin müəllifini müəyyən edin:**



   A) Mikayıl Abdullayev
   B) Fazil Nəcəfov
   C) Pol Sezann
   D) Klod Mone
   E) Anri Matis

**9. "Masada meyvələrlə natürmort" əsəri Pablo Pikassonun yaradıcılığının hansı dövrünə aiddir?**



A) Analitik kubizm
B) Sintetik kubizm
C) Afrika dövrü
D) Sürrealizm dövrü
E) Mavi dövr

**10. Qədim Azərbaycan qabının forma və dekorunun düzgün təhlilini müəyyən edin:**



A) Mis məcməyi qapağının forması döyüşçü dəbilqəsi formasında, üzərindəki dekor əmin-amanlıq, bərəkət elementləridir.
B) Mis məcməyi qapağının forması döyüşçü dəbilqəsini xatırlatsa da, üzərindəki dekor uzunömürlülük simvoludur.
C) Mis məcməyi qapağının forması qala formasında, üzərindəki dekor bərəkət elementləridir.
D) Mis məcməyi qapağı baş geyimi formasında, üzərindəki dekor xalqın döyüş əzmini göstərən simvollardır.
E) Bütün cavablar doğrudur.

**11. Rəssamların üslub və texnikasını müəyyənləşdirin:**

1. Toğrul Nərimanbəyov
2. Böyükağa Mirzəzadə
3. Sadıq Dadaşov
4. Fuad Əbdürrəhmanov
5. Eldar Mikayılzadə

a. rəngkar, qrafika, səhnə tərtibatı;
b. monumentalist, teatr rəssamı, rəngkar;
c. dəzgah və monumental heykəltəraşlıq;
d. memarlıqda milli və müasir elementlər;
e. xalçalarda fəlsəfi fikrin təcəssümü;

A) 1-b, 2-c, 3-e, 4-a, 5-d
B) 1-b, 2-a, 3-d, 4-c, 5-e
C) 1-a, 2-b, 3-c, 4-e, 5-d
D) 1-c, 2-d, 3-a, 4-b, 5-e
E) 1-d, 2-c, 3-b, 4-a, 5-e

**12. Ejen Delakruanın əsərlərini müəyyən edin:**

**1. "Horatsilərin andı"**



**2. "Dante və Vergili"**



**3. "Sen- Bernar aşırımını keçən Napaleon Bonapart"**



**4. "Sardanapalın ölümü"**



**5. "Azadlıq barrikadaları"**



A) 2, 3, 4
B) 1, 2, 4
C) 1, 4, 5
D) 2, 4, 5
E) 1, 2, 3

**13. Mövzu üzrə rəsm məşğələsində istifadə olunan fəaliyyətləri seçin:**

1. Hadisələrin sujeti əsasında çəkilən rəsmlər
2. Nağıllara, hekayələrə, təmsillərə çəkilən illüstrasiyalar
3. Əşyaların naturadan rəsmi
4. Sərbəst mövzular əsasında çəkilən rəsmlər
5. Müxtəlif yumşaq materiallardan fiqurların hazırlanması

A) 1, 3, 5
B) 2, 3, 4
C) 1, 2, 4
D) 3, 4, 5
E) 2, 4, 5

**14. XIII əsrdən başlayaraq miniatürlərdə nə kimi dəyişikliklər baş verdi?**

A) Başlanğıc hərflər bəzəkli təsvir olunurdu.
B) Mətnin çərçivəsi ornamentlərlə bəzədilirdi.
C) Miniatürlərin üzəri parıltılı lakla örtülürdü.
D) Təsvirlər bütöv bir səhifəni əhatə edən illüstrasiyaya çevrildi.
E) Kiçik ölçülü portret rəngkarlığı yaradıldı.

**15. Dekorativ-tətbiqi fəaliyyət dərslərində fəaliyyət formasını müəyyən edin:**

A) tərtibat işləri
B) yapma
C) illüstrasiya
D) rəssamların həyat və yaradıcılığı
E) süjetli rəsm

**16. Sxemdəki anlayışlara əsasən sual işarəsinin yerinə uyğun olan müasir geyim üslubunu seçin:**




A) Klassik üslub
B) Romantik üslub
C) İdman üslubu
D) Avanqard üslub
E) Modern üslub

**17. Dekorativ-tətbiqi fəaliyyət məşğələlərində istifadə *olunmayan* fəaliyyəti seçin:**

A) dekorativ yapma
B) aplikasiya
C) təbiət materialları ilə iş
D) dekorativ rəsm
E) nağıllara, hekayələrə, təmsillərə çəkilən illüstrasiya

**18. Memarlıq üslublarını və geyim modellərini qruplaşdıraraq *düzgün* uyğunluğu müəyyən edin:**




A) I. B-qotik; II. C-barokko; III. A-antik
B) I. B-intibah; II. C-rokoko; III. A-bizans
C) I. B-barokko; II. A-intibah; III. C-rokoko
D) I. C-bizans; II. A-intibah; III. B-rokoko
E) I. A-antik; II. B-bizans; III. C-intibah

**19. İşığa yeni baxış gətirən impressionist rəssamı seçin:**



A) Edqar Deqa
B) Ogüst Renuar
C) Klod Mone
D) Eduard Mane
E) Pol Qogen

**20. “Təkəlduz tikmə növünə aid eskiz hazırlayın. Fon rəngini tünd, naxış kompozisiyasını isə əlvan təsvir edin. Təsviretmədə rəng uyğunluğuna əməl etməyə çalışın. ” Tapşırıq nümunəsinə əsasən məşğələ növünü müəyyən edin.**

A) Dekorativ-tətbiqi fəaliyyət
B) Yapma
C) Naturadan rəsm
D) Mövzu üzrə rəsm
E) Yaddaşa əsasən rəsm

**21. Uyğunluğu müəyyən edin:**

a. Rəngkarlığın əsas ifadə vasitələri
b. Qrafikanın əsas ifadə vasitələri
1. Rəng
2. Ştrix
3. Kolorit
4. Xətt
5. Yaxma
6. Ton

A) a-1, 3, 5; b-2, 4, 6
B) a-1, 3, 6; b-2, 4, 5
C) a-1, 2, 6; b-3, 4, 5
D) a-2, 4, 5; b-1, 3, 6
E) a-2, 3, 6; b-1, 4, 5

**22. Yarandığı dövrdə tablo və kətan anlayışları mövcud deyildi. Bu dövrün əsərləri döşəmə və ya divarlarda nəm suvaq üzərində su tərkibli boyalar vasitəsilə çəkilirdi. Bu monumental rəngkarlığın hansı texnikasıdır?**

A) Mozaika
B) Freska
C) Vitraj
D) Anfas
E) Petroqliflər

**23. Dəzgah heykəltəraşlığına aid *deyil:***

A) yaxın məsafədən baxılır
B) ətraf mühit və memarlıqla bağlı olmur
C) rəssamların emalatxanasında rast gəlinir
D) xatirə-memorial ansamblar
E) əşyanın təbii ölçülərinə uyğundur

**24. Qriqori Qaqarinin yaradıcılığının əsas mövzusu:**

A) Əsatir
B) Milli geyimlər
C) Xalçaçılıq
D) Batal
E) Təbiət

**25. Əsərin müəllifini və janrını müəyyən edin:**



A) Səttar Bəhlulzadə-mənzərə janrı
B) Eldar Mikayılzadə-məişət janrı
C) Vəcihə Səmədova-məişət janrı
D) Maral Rəhmanzadə-tarixi janr
E) Elmira Şahtaxtinskaya-məişət janrı

**26. Qiyamçı, eksperimentator, nonkonformist və novator Azərbaycan rəssamı:**

A) Böyükağa Mirzəzadə
B) Toğrul Nərimanbəyov
C) Mircavad Mircavadov
D) Tahir Salahov
E) Sakit Məmmədov

**27. 10 dəqiqəlik animasiya filmi üçün təxminən neçə min şəkil lazım olur?**

A) 70-90 min
B) 20-140 min
C) 50-70 min
D) 30-40 min
E) 100-110 min

**28. “Uydurma xəyallar, formaların qəribə uyğunluğu və fərqli obrazlar” bu üslubun ümumi xüsusiyyətləri sayılır:**

A) Kubizm
B) Fovizm
C) Sürrealizm
D) Ekspressionizm
E) Postimpressionizm

**29. Yaradıcı rəsm haqqında fikirlərdən biri *yanlışdır:***

A) Qazanılmiş bilik və bacarıqlar əsasında çəkilmiş rəsmdir.
B) Müəyyən bir fikir, ideya ifadə olunur.
C) Əsas məqsəd – bədii obrazın yaradılmasıdır.
D) Bədii əsərin ideyasını müəyyən edən ilkin rəsmdir.
E) Fərdilik və dəst-xəttə malikdir.

**30. Əsərin müəllifini və adını qeyd edin:**



A) Ömər Eldarov- "Zamanın dörd anı"
B) Fazil Nəcəfov- "Zamanın oyunları"
C) Fuad Əbdürrüəhmanov- "Azad qadın"
D) Tokay Məmmədov- "Qadın"
E) Arif Hüseynov- "Xatirələr"

**31. Aran memarlıq məktəbinə *aid olan* cərgəni seçin:**

1. *Ağoğlan monastrı*
2. *Qız qalası*
3. *Xudavəng monastır kompleksi*
4. *Yusif ibn Küseyir türbəsi*
5. *Təbrizdəki Göy məscid*
6. *Bayıl qəsri*
7. *Müqəddəs Yelisey məbədi*

A) 1, 4, 5
B) 3, 2, 6
C) 4, 5, 7
D) 1, 3, 7
E) 2, 4, 7

**32. Milli teatr-dekor sənətinin təməl daşlarını qoyan sənətçiləri müəyyən edin:**

1. Ömər Eldarov
2. Əzim Əzimzadə
3. Bəhruz Kəngərli
4. Fazil Nəcəfov
5. Fərhad Xəlilov

A) 1, 3
B) 3, 4
C) 2, 3
D) 4, 5
E) 2, 5

**33. Pablo Pikassonun analitik kubizm dövrü rəngkarlığının *fərqli* xüsusiyyətlərindən biri:**

A) dekorativ kollajların yaradılması
B) əşyaların formasının sadələşdirilməsi
C) həndəsi tərz ilə həyati elementlərin birləşdirilməsi
D) klassikanın özünəməxsus və bənzərsiz variantının yaradılması
E) monoxromluq, hər bir detalın dəqiq ifadəsindən imtina edilməsi

**34. Karavacconun əsərlərinin xarakterik xüsusiyyəti:**

A) Ştrix
B) İşıq-kölgə
C) Konstruksiya
D) Ləkə
E) Heç biri

**35. Ton kontrastı nəyin fərqidir?**

A) Parlaq və əlvan rənglərin
B) Rəngin açıq və tündlüyünün
C) Əsas və qarışıq rənglərin
D) İsti və soyuq rənglərin
E) Hər birinin

**36. Leonardo da Vinçinin yaradıcılığı hansı dövrə təsadüf etmişdir?**

A) Antik
B) Orta əsrlər
C) Renessans
D) Yeni dövr
E) Ən yeni dövr

**37. Məzmun və funksiyasına, inkişaf sahələrinə görə heykəltəraşlığın növləri bunlardır:**

A) Dekorativ, monumental, dəzgah
B) Freska, mozaika, vitraj
C) Üst, tors, heykəl
D) Mərmər, tunc, daş
E) Monumental, daş, mozaika

**38. Dekorativ-tətbiqi sənət növü:**

A) Rəngkarlıq, qrafika
B) Bədii metal, keramika
C) Memarlıq, dizayn
D) Heykəltəraşlıq, xalçaçılıq
E) Qrafika, hörmə

**39. Dekorativ-tətbiqi sənətdə stilizasiya nəyə deyilir?**

A) Şərti ifadə üslubudur, obyektin sadələşdirilmiş (ümumiləşdirilmiş) təsvir dilidir.
B) Ornament motivlərinin rəssamın arzusu ilə dəyişdirilməsidir.
C) Təsvirin daha dəqiq və rahat yaradılması üçün vasitədir.
D) Təsviri sənətin janrları arasında əlaqədir.
E) Dekorativ-tətbiqi sənətin əsas ifadə vasitəsidir.

**40. Mənzərənin süjetli rəsmdən *fərqi* nədir?**

1. insan fəaliyyətsizdir
2. insan fəaliyyətdədir
3. süjet xətti yaranmır
4. süjet xətti yaranır
5. kompozisiyada əsas süjet önə çəkilir
6. kompozisiyada əsas mənzərə önə çəkilir

A) 3, 5, 6
B) 1, 2, 5
C) 2, 4, 5
D) 2, 4, 6
E) 1, 3, 6